https://doi.org/10.36719/2706-6185/45/142-146

**Reyhanə Səfərova**
Bakı, Azərbaycan
https://orcid.org/0009-0006-5168-5216
safarovareyhane@gmail.com

# Yunan və Roma mədəniyyətlərinin Azərbaycanın qədim cəmiyyətinə təsiri: mədəni və sosial perspektivlər

## Xülasə

Qədim dövrlərdə Azərbaycanın müxtəlif bölgələrinə Yunan və Roma mədəniyyətləri əhəmiyyətli təsir göstərmişdir. Bu mədəniyyətlər, xüsusilə qədim Albaniya, Atropatena və digər ərazilərdə, şəhərsalma, incəsənət, təhsil və ticarət sahələrində mühüm yeniliklərə töhfə vermişdir. Yunan fəlsəfəsi dövrün sosial strukturunu yenidən formalaşdırmış, yeni düşüncə tərzlərinin və idarəetmə prinsiplərinin yaranmasına təkan vermişdir. Roma hüquq sisteminin isə, xüsusilə Azərbaycanın qədim dövlət strukturlarında qanunvericilik və inzibati təcrübələrin inkişafında əhəmiyyətli rolu olmuşdur. Bu antik mədəniyyətlərin, həmçinin Azərbaycanın qədim şəhərlərinin inkişafında və infrastrukturunun təkmilləşməsində də əhəmiyyətli payı olmuşdur. Yunan və Roma mədəniyyətlərinin təsiri, yalnız şəhər mədəniyyətində deyil, kənd təsərrüfatı, din və sənət sahələrində də əhəmiyyətli şəkildə özünü göstərmişdir. Yunan və Roma mədəniyyətlərinin bölgəyə gətirdiyi yeniliklər, yerli cəmiyyətlərdə sosial və mədəni təmayüllərin, müxtəlif etnik və mədəni qruplar arasında qarşılıqlı əlaqələrin inkişafını sürətləndirmişdir. Nəticə etibarilə, bu antik mədəniyyətlər, Azərbaycanın qədim cəmiyyətində sosial, mədəni, iqtisadi və intellektual inkişafın təməl daşlarını qoymuş, həmçinin Azərbaycanın gələcək mədəniyyətinin formalaşmasına əhəmiyyətli dərəcədə təsir etmişdir.

Məqalədə Yunan və Roma mədəniyyətlərinin Azərbaycan cəmiyyətinə təsirinin müxtəlif yönləri araşdırılmış və bu təsirlər nəticəsində mədəni və sosial inkişafın necə formalaşdığı göstərilmişdir.

***Açar sözlər:*** *Yunan mədəniyyəti, Roma mədəniyyəti, Albaniya, Atropatena, Ellinizm, mədəni əlaqələr*

**Reyhana Safarova**
Baku, Azerbaijan
https://orcid.org/0009-0006-5168-5216
safarovareyhane@gmail.com

# The Influence of Greek and Roman Cultures on the Ancient Society of Azerbaijan: Cultural and Social Perspectives

## Abstract

In ancient times, Greek and Roman cultures had a significant impact on various regions of Azerbaijan. These cultures, especially in ancient Albania, Atropatena and other areas, contributed to important innovations in the fields of urban planning, art, education and trade. Greek philosophy reshaped the social structure of the period, gave impetus to the emergence of new ways of thinking and principles of governance. The Roman legal system, on the other hand, played a significant role in the development of legislation and administrative practices, especially in the ancient state structures of Azerbaijan. These ancient cultures also played a significant role in the development of ancient cities of Azerbaijan and the improvement of their infrastructure. The influence of Greek and Roman cultures was significantly manifested not only in urban culture, but also in the fields of agriculture, religion and art. The innovations brought by Greek and Roman cultures to the region accelerated the development of social and cultural trends in local societies, as well as mutual relations between various ethnic and cultural groups. As a result, these ancient cultures laid the foundation


Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

stones for social, cultural, economic and intellectual development in the ancient society of Azerbaijan, and also significantly influenced the formation of the future culture of Azerbaijan.

The article examines various aspects of the influence of Greek and Roman cultures on Azerbaijani society and shows how cultural and social development was formed as a result of these influences.

***Keywords:*** *Greek culture, Roman culture, Albania, Atropatena, Hellenism, cultural relations*

## Giriş

Qədim dövrlərdə müxtəlif mədəniyyətlər arasındakı əlaqələr, həm siyasi və iqtisadi sahələrdə, həm də mədəni və sosial inkişafda böyük əhəmiyyətə malik olmuşdur. Yunan və Roma mədəniyyətləri, Azərbaycanın qədim ərazilərində, ticarət yolları üzərindəki strateji əhəmiyyət kəsb edən bölgələrdə güclü təsirə malik olmuşdur. Bu mədəniyyətlər, bölgədəki şəhərsalma, incəsənət və fəlsəfə sahələrinə yeniliklər gətirmiş, həmçinin sosial və hüquqi strukturlarında da ciddi dəyişikliklərə səbəb olmuşdur.

Yunan ellinizm mədəniyyəti, Makedoniyalı İsgəndərin dövründə Yunan mədəniyyətinin və dilinin geniş ərazilərə yayılması ilə əlaqədar olaraq formalaşmış bir mədəniyyətdir. Azərbaycan ərazisində ellinizmin yayılması, xüsusilə Makedoniyalı İsgəndərin Asiya səfərindən sonra başlamış və nəticədə Yunan mədəniyyəti, iqtisadiyyatı və şəhər həyatı bu ərazilərdə möhkəmlənmişdir.

Qədim Roma İmperiyası, e.ə II əsrdə Cənubi Qafqaz regionuna daxil olmuş və Roma mədəniyyətinin təsiri bu ərazilərdə yayılmağa başlamışdır. Roma İmperiyası e.ə I əsrdə Cənubi Qafqazdakı təsirini daha da möhkəmlətmişdir. Bölgələrdəki arxeoloji qazıntılarda tapılan Roma dövrünə aid keramika və heykəllər, Roma mədəniyyətinin təsirinin burada əhəmiyyətli olduğunu sübut edir (Kərimov, 2019).

Eyni zamanda, Qədim Albaniya və Atropatena ərazisində yerləşən müxtəlif şəhərlər, ticarət yolu üzərindəki önəminə görə, həm Roma, həm də Yunan mədəniyyətlərinin təsiri altında inkişaf etmişdir. Təsadüfi deyil ki, bu ərazilərdəki qazıntılarda Yunan və Roma memarlıq üslubuna uyğun yerli əhalinin gündəlik həyatında istifadə etdiyi əşyalar ilə qarşılaşılmışdır.

Yunan və Roma mədəniyyətinin təsiri, zamanla yerli mədəniyyətlə qarışaraq unikal bir mədəniyyət formalaşdırmış və bu mədəniyyətin təsiri müxtəlif zamanlarda Azərbaycanda davam etmişdir.

### Tədqiqat

Yunan mədəniyyəti e.ə. V-IV əsrlərdə ən yüksək inkişaf səviyyəsinə çatmış və dünya sivilizasiyasına əhəmiyyətli şəkildə təsir göstərmişdir. Özünün ən yüksək inkişaf mərhələsində olan bu mədəniyyət E.ə IV-I əsrlər ellinizm dövründə Makedoniyalı İsgəndərin yürüşləri nəticəsində Şərq ölkələrinə və Cənubi Qafqaza yayılmışdır. Makedoniyalı İsgəndərin Şərqə yürüşlərindən sonra Yunan mədəniyyətinin Cənubi Qafqaza təsiri, daha da güclənmişdir. Ellinizm dövrünün başlanğıcı ilə birlikdə Atropatena və Albaniya mədəniyyətinə yunan təsirinin nüfuz etməyi güclənmişdir. Albaniyanın şəhərlərində, xüsusilə də də Mingeçevirdə aparılan arxeoloji tədqiqatlar göstərir ki, Yunan memarlığı və incəsənəti bu bölgədə geniş yayılmışdır (Mədəniyyət tarixi və nəzəriyyəsi, 2010). Yunan təsirinin əsas göstəricisi olan şəhər memarlığı, Atropatena və Albaniyanın ərazisində tapılan müxtəlif Yunan tipli tikililərdə hiss olunmuşdur. Makedoniyalı İsgəndərin dövründə Albaniyanın və Atropatenanın Yunan şəhər-dövlətləri ilə sıx mədəni-ticari əlaqələri olmuşdur.

Yunanistan və Romadan Baktriya və Hindistana gedən karvan yolu üzərində yerləşən Atropatena vasitəsi ilə Albaniyadan İberiyaya, Ermənistana və Qara dəniz sahillərinə qədər ölkənin iqtisadi və ictimai inkişafında əhəmiyyətli rol oynayan yollar uzanırdı (Səfərov, 1989, s. 68). Atropatenanın coğrafi şəraitinin əlverişli olması və əhəmiyyətli ticarət yollarının bu ərazidən keçməsi, onun iqtisadi inkişafına əhəmiyyətli təsir etmişdir. Yunan çoğrafiyaşünas və tarixçi Strabonun qeyd etdiyinə görə Midiyada Makedoniyalılar tərəfindən əasası qoyulmuş yunan şəhərləri mövcud olmuşudr. Bu şəhərlərə Rey, onun yaxınlığında yerləşən Madikiya, Anageya və s. şəhərləri nümunə göstərmək olar. Atropatena həmin ticarət yolları vasitəsilə bu şəhərlərlə daim əlaqədə olmuşdur (Fazili, 1992, s. 99-100). Midiya və Atropatenanı ellinizm mədəniyyətinin təsirində olan mərkəzlərlə ilə birləşdirən şəhərlər əsasən Baktriya və Hindistana gedən şimal karvan yolu yəni, ipək yolu yanında yerləşirdi. Bu xüsusiyyətinə görə Atropatena, həm də qonşu ölkələrin iqtisadi inkişafında əhəmiyyətli rol oynaya bilmişdi.

Atropatenalıların dini ideologiyasının əsasını Zərdüştilik təlimi təşkil etsə də, ölkənin bir çox bölgəsində Yunan mifologiyasının qəhrəmanı Herakılın kultu da yayılmışdı (Azərbaycan Milli Elmlər Akademiyası, 2024, s. 7). Bunu Atropatenada Yunan əsatirinin qəhrəmanı Herakla məxsus olmuş Kerifto abidəsi sübut edir. Yunan alimi Strabon qədim albanların Günəş Allahı Heliosa, Göy Allahı Zevsə və məbədi İberiya yaxınlğında yerləşən ay İlahəsi Selenaya etiqadları olduğunu yazırdı (Hacıyev, 2018, s. 83). Bu məbədlərdəki kahin vəzisəfini ablanlarda hökmdardan sonra ən hörmətli adam yerinə yetirir və o böyük və sıx əhalisi olan müqəddəs vilayətə başçılıq edirdi (Əliyarlı, 2007, s. 21).

Ellinizm mədəniyyəti Albaniya ərazisində də geniş yayılmışdı. Arxeoloji qazıntılar sübut edir ki, ellinizm mədəniyyəti burada yaşayan Albaniya əhalisinin maddi mədəniyyətinə, məişətinə və təsərrüfat həyatına təsir göstərmişdir. Şimali Azərbaycanın antik mədəniyyət ilə ilk əlaqələri, bu ərazilər hələ Əhəməni imperiyasının tərkibində olduğu dövrdən yaranmışdır. Bu imperiya vasitəsilə albanlar digər xalqlarla əlaqələr qurmuş, bu da Albaniya əhalisinin inkişafına və maddi mədəniyyətinə təsir göstərmişdir (Mustafayev, 2016, s. 17). Albaniya Makedonyalı İsgəndərin Şərq yürüşü sayəsində Əhəmənilərin əsarətindən azad olduqdan sonra antik dünya ilə ticarət əlaqələrini genişləndirmişdir. Nəticədə Makedonyalı İsgəndərin pullarının bir hissəsi Albaniyaya e.ə.IV əsrin sonlarında daxil olmuş və e.ə.III-II əsrlərə qədər burada əsas valyuta vahidi rolunu oynamışdır (Əliyeva, 2013, s. 8). Bunu arxeoloji qazıntılar zamanı Naxçıvan, Qəbələ, Bərdə, Xınıslı və digər yerlərdən İsgəndər və onun canişinləri tərəfindən zərb edilmiş sikkələrin, pul dəfinələrinin, müxtəlif bəzək əşyalarının bullaların və s. tapılması sübut edir (Fazili, 1992, s. 100).

Arxeoloji tədqiqatlar zamanı Mingəçevir, Şamaxıdan tapılmış möhürlər də ellinizm mədəniyyəti ilə Albaniyanın əlaqələri haqqında xəbər verir (Əliyeva, 2012, s. 42).

Roma mədəniyyəti də Yunan mədəniyyəti kimi qədim dövrün ən təsirli mədəniyyətlərindən biri olub, xüsusilə hüquq, dövlət idarəçiliyi və memarlıq sahələrindəki yenilikləri ilə tanınmışdır. Roma mədəniyyəti, hüququ, və onun dövlət idarəetmə strukturları, çoxsaylı digər mədəniyyətlər güclü təsir etmişdir. Bu təsir Cənubi Qafqazda, o cümlədən Azərbaycanda, hiss olunmuşdur.

Roma İmperiyası, e.ə. I əsrdən başlayaraq Qafqaz bölgəsində nüfuzunu artırmaq üçün Azərbaycan ərazisində yerləşən Atropatena və Albaniya ilə siyasi-hərbi münasibətlər qurmuşdur. Romalılar tərəfindən aparılan diplomatik və hərbi əlaqələr nəticəsində Roma mədəniyyəti Albaniya və Atropatenaya nüfuz etmişdir. Roma İmperiyasının Atropatenaya təsiri, əsasən döyüşlər və ticarət əlaqələri vasitəsilə baş vermişdir. Azərbaycan ərazisindəki mülkiyyət və vergi sistemləri də Roma mədəniyyətinin əsas xüsusiyyətlərini daşımışdır.

Roma və Yunan mədəniyyətləri Azərbaycandakı sosial həyat və məişətə də böyük təsir göstərmişdir. Arxeoloji qazıntılar zamanı Roma və Yunan üslubunda hazırlanmış əşyalar aşkar edilmişdir. Qazıntılar zamanı müxtəlif rəngli və ölçülü asma bəzək əşyaları, heyvan heykəlcikləri və başqa əşyalar aşkar edilmişdir. Torpaq və katakomba qəbirlərdən aypara formasında qızıl sırqalar aşkar edilmişdir. Bu əşyalar Roma dövləti ilə ticarətin məhsulu olub, bu əraziyə oradan idxal edilmişdi. Bu dövrdə yunan-roma dünyasından gəlmiş gemmalı üzüklər də olduqca əhəmiyyət kəsb edirdi. Roma gemmalarının yayılmasında e.ə I əsrin ortalarında Pompeyin və Antoninin Azərbaycana yürüşləri mühüm rol oynamışdı. Gemma üzüklərin qaynağı Qərb olsa da, Romalıların şərqə doğru yürüşləri ilə bağlı olaraq Azərbaycanda da yayılmışdır (Əliyeva, 2014, s. 6). Roma gemmalarında tanrılar, dini və simvolik səciyyəli təsvirlər verilmişdir. Onların içində Mars, Erot, Helios, Benera kimi tanrıların rəsmlərinə rast gəlirik.

Antik oyma əşyalarının da Azərbaycana gətirilməsi, Lukull və Pompeyin rəhbərlik etdiyi Roma qoşunlarının Azərbaycana hücumu ilə bağlıdır. III əsrdən başlayaraq Albaniya ilə Roma arasındakı ticarət və mədəni əlaqələr getdikcə zəifləmiş və Azərbaycanın Sasani dövləti ilə siyasi və mədəni münasibətləri qüvvətlənmişdir (Hüseynov, 2009, s. 276-277).

Bu mədəniyyətlərin təsiri nəticəsində Azərbaycan ərazisində mədəni müxtəliflik yaranmış, Albaniya, Atropatena kimi dövlətlər Yunan və Roma mədəniyyətləri ilə sıx əlaqələr qurmuşdur. Beləliklə, bu mədəni təsirlər Azərbaycanın qədim tarixində mühüm rol oynamış, həmçinin Azərbaycanın tarixinin inkişafına və regiondakı mədəniyyətlərin birləşməsinə güclü təsir etmişdir.

## Nəticə

Yunan və Roma mədəniyyətləri, Azərbaycan ərazisindəki qədim cəmiyyətlərə güclü təsir göstərmiş və uzun müddət boyunca müxtəlif sahələrdə bu təsir davam etmişdir. Makedoniyalı İsgəndərin Şərqə yürüşləri nəticəsində, Yunan mədəniyyətinin Cənubi Qafqaza və Azərbaycanın qədim şəhərlərinə daha da yayılmasına zəmin yaranmışdır. Makedoniyalı İsgəndərin bu əraziləri işğal etməsindən sonra, Yunan dilinin və mədəniyyətinin yerli cəmiyyətlər üzərindəki təsiri əhəmiyyətli dərəcədə güclənmişdir. Ellinizm mədəniyyətinin Azərbaycanda yayılması, ərazidəki sosial, iqtisadi və mədəni inkişafa mühüm təsir göstərmişdir. Atropatena və Albaniyada Yunan mədəniyyətinin elementləri, xüsusilə incəsənət, fəlsəfə və şəhər quruluşu sahələrində özünü göstərmişdir. Qədim Albaniya və Atropatena ərazilərində tapılan Yunan məbədləri və memarlıq üslubları, bu mədəniyyətlərin yerli həyatla necə inteqrasiya olduğunu göstərir. Məsələn, aparılan arxeoloji qazıntılarda həm Atropatenada, həm də Albaniyada tikinti materialı kimi kirəmit aşkar edilmişdir. Bu ərazilərdəki qazıntılarda Yunan və Roma dövrünə aid keramika və heykəllər tapılmış, eyni zamanda Yunan fəlsəfəsinin və elminin yerli təhsildə təsiri müşahidə edilmişdir. Həm Albaniya, həm də Atropatena əhalisi Yunan tanrılarına sitayiş etmişdir, bunu Atropatenada aşkalanan Kerifto abidəsi sübut edir. Kerifto abidəsi Yunan əsatirinin qəhrəmanı Herakla məxsus olmuş, abidənin giriş hissəsində yunan dilində yazı həkk olunmuş, əhali burada dini bayram və ayinlərini qeyd edirdi. Strabona görə Albanlar isə Yunan tanrıları Zevs, Helios və Selenaya sitayiş edirdilər.

Roma İmperiyasının Cənubi Qafqaza ordu göndərməsi və bu əraziləri öz nüfuz dairəsinə daxil etməsi, ticarət, şəhərsalma və hüquqi sistemin inkişafında böyük rol oynamışdır. Roma hüququnun və idarəetmə sisteminin qəbul edilməsi, yerli cəmiyyətin sosial strukturlarında yeniliklərə töhfə vermiş, əhalinin hüquqi və sosial həyatında mühüm dəyişikliklərə səbəb olmuşdur. Roma və Yunan mədəniyyətlərinin gətirdiyi ticarət yolları, yeni şəhərlərin və inzibati mərkəzlərin yaranması üçün şərait yaratmışdır. Bu, yalnız Azərbaycanla məhdudlaşmamış, bütövlükdə Cənubi Qafqazın inkişafında mühüm bir rol oynamışdır. Məsələn, Astara və digər sahil bölgələrimizdə Roma və Yunan ticarət əlaqələri nəticəsində iqtisadi artım və şəhərsalma inkişaf etmiş, bu bölgələrdə güclü ticarət mərkəzləri formalaşmışdır.

Yunan və Roma mədəniyyətlərinin Azərbaycanın qədim cəmiyyətinə təsiri, bu cəmiyyətin mədəni və sosial quruluşunun inkişafında əsaslı rola malik olmuş, Azərbaycanın gələcək mədəni irsinin zənginləşməsinə və formalaşmasına mühüm töhfələr vermişdir.

## Ədəbiyyat

1. Azərbaycan Milli Elmlər Akademiyası. (2024). *Atropatena Azərbaycan tarixçilərinin tədqiqatlarında.* Nəşriyyat.
2. Əliyeva, F. (2014). Albaniyanın Ellin dünya ilə mədəni əlaqələri. *Tarix və onun problemləri,* No 1, 5-9.
3. Əliyeva, F. (2012). Albaniyanın ellin dünya ilə siyasi əlaqələri. *Tarix və onun problemləri,* No 3, 41-46.
4. Əliyeva, F. (2013). Albaniyanın ellin dünya ilə iqtisadi əlaqələri. *Tarix və onun problemləri,* No 3, 5-10.
5. Əliyarlı, S. (2007). *Azərbaycan tarixi üzrə qaynaqlar.* Çıraq.
6. Fazili, A. (1992). *Atropatena (er. əv. IV – er. VII əsri).* Elm.
7. Hacıyev, İ. (2018). Qafqaz Albaniyasının maddi mədəniyyət abidələri Daş plastikası. *Dövlət və Din,* № 02 (55), 82-90.
8. Hüseynov, İ., Əfəndiyeva, N. (2009). *Qədim dünya mədəniyyəti.* Mars-print NPM.
9. Kərimov, S. (2019). Atropatena ilə Albaniyanın maddi mədəniyyətlərinin oxşar və fərqli cəhətləri. *Bakı Beynəlxalq Multikuluralizm mərkəzi,* 50-52.
10. *Mədəniyyət tarixi və nəzəriyyəsi.* (2010). Sabah.
11. Mustafayev, L. (2016). *Antik mədəniyyətin Azərbaycan Albaniyasının maddi irsinə mədəni təsiri.*
12. Səfərov, Y. (1989). *Qədim Azərbaycan.* Azərnəşr.

Daxil oldu: 21.10.2024
Qəbul edildi: 14.02.2025